“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# BÜLLETEN

№ 03 (19) • Mart 2014-cü il   w w w . a z e r s u . a z   Qaynar xətt - 955

> “Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir”
>
> *İlham Əliyev*



## CATEC - 2014

səh. 6

### “İnfrastrukturun yenilənməsi və keyfiyyət anlayışı” mövzusunda təlim keçirilmişdir



səh. 3

### “Azərsu" ASC “Caspian Energy Integration Award - 2014” mükafatına layiq görülmüşdür



səh. 5

### “Pirşağı Çirkab Su Təmizləyici Qurğusu” layihəsi üzrə razılaşma sazişi imzalanmışdır



səh. 7

# Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir



**Təbrikdə deyilir:**

Milli varlıq və mənəviyyat xəzinəsi olan Bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətə çağırması, səmimiyyəti gücləndirməsi və yüksək əxlaqi keyfiyyətlər formalaşdırması onu ən ali insani xüsusiyyətlərin daşıyıcısı kimi ümumbəşəri mədəni sərvətlər sırasına daxil etmişdir.

Bahar bayramı keçmişimizin ən çətin dövrlərində belə zehinlərdən silinməyib gələcəyə inamımızı sarsılmağa qoymamışdır. Qəlbimizin dərinliklərində kök salaraq milli özünüdərk məfkurəsini yaşatması sayəsində o, ötən əsrin sonlarına doğru Azərbaycanda müstəqil dövlətçilik ideallarının gerçəkləşməsini təmin edən mühüm amillərdəndir. Mənəvi mədəniyyətimizin zənginliklərini özündə toplamış qədim Novruz mərasimlərini qloballaşmanın vüsət aldığı, sürətlə dəyişən dünyada bütün rəngarəngliyi ilə layiqincə qoruyub saxlaması müasir Azərbaycanın tarixi-mədəni və milli-mənəvi irsə bağlılığının rəmzidir.

Yazın gəlişi onun yeniləşdirici ovqatına uyğun, yurdumuzun hər bir guşəsində aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri və insanlarımızın rifahını əsaslı surətdə yaxşılaşdıran çoxsaylı nailiyyətlərlə səciyyələnir. Bizimlə birgə baharı azərbaycançılıq düşüncəsi işığında minlərlə soydaşımız ölkəmizin hüdudlarından uzaqlarda qarşılayırlar. Həmrəyliyimizin rəmzi olaraq bu ümumxalq bayramı qoy hər bir ailəyə bol sevinc və ruzi-bərəkət bəxş eləsin.

# Milli Məclisdə Nazirlər Kabinetinin illik hesabatı dinlənilmişdir



## *Baş nazir Artur Rasizadə: "Əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür"*

Milli Məclisin martın 14-də keçirilmiş iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü ildə fəaliyyətinə dair illik hesabatı dinlənilmişdir. Baş nazir Artur Rasizadə Nazirlər Kabinetinin 2013-cü ildə fəaliyyəti haqqında hesabatla çıxış etmişdir. A.Rasizadə bildirmişdir ki, Azərbaycanın ardıcıl islahatlara və sistemli proqramlara əsaslanan dinamik sosial-iqtisadi tərəqqisi hesabat ilində də uğurla davam etdirilmişdir. Hökumətin fəaliyyətinin əsasını təşkil edən iqtisadi inkişafın başlıca hədəfi xalqın rifahının yüksəldilməsidir.

Hesabat ilində ümumi daxili məhsul 5,8 faiz artmış, qeyri-neft sektorunda isə artım 10,0 faiz olmuşdur. Bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatına 22,0 milyard manat investisiya cəlb edilmişdir. Ümumi investisiyaların 74,3 faizi qeyri-neft sektorunun payına düşmüşdür. İllik inflyasiya 2,4 faiz səviyyəsində qeydə alınmışdır. Əhalinin gəlirləri 8,0 faiz artmış, onun adambaşına düşən hissəsi 4,0 min manatı ötmüş, yoxsulluğun səviyyəsi isə 5,3 faizə düşmüşdür.

Minimum əməkhaqqı, pensiyaların baza hissəsi və dövlət təşkilatlarında çalışanların maaşları artırılmış, ümumilikdə ölkə üzrə orta aylıq məvacib 6,2 faiz artırılaraq, 423 manata çatdırılmışdır. Regionların sosial-iqtisadi inkişafı proqramlarının icrasından danışan Baş nazir əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində görülmüş işlər barədə də məlumat vermişdir: ***"Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində görülmüş əhəmiyyətli işləri xüsusilə vurğulamaq istərdim. Son on ildə 3400 kilometrdən artıq içməli su xətti, 1200 kilometrdən çox kanalizasiya xətti, xeyli sayda su anbarı, nasos stansiyası və kəndlərdə modul tipli sutəmizləyici qurğular inşa edilmişdir. Görülmüş işlərin məntiqi nəticəsi olaraq, ölkə əhalisinin 55 faizi fasiləsiz keyfiyyətli içməli su ilə təmin olunmuşdur".***

Nazirlər Kabinetinin hesabatı ilə əlaqədar müzakirələr zamanı çıxış edən deputatlar ötən il Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələr əldə olunduğunu, əhalinin yaşayış səviyyəsinin getdikcə yüksəldiyini vurğulamışlar. Çıxışlarda bildirilmişdir ki, Nazirlər Kabinetinin illik hesabatında ölkə həyatının bütün sahələri əhatə edilmiş, bütün əsas göstəricilər öz əksini tapmışdır. Qeyd edilmişdir ki, enerji sahəsi ilə yanaşı, qeyri-neft sektorunun inkişafı Azərbaycanın bölgədə güclü potensiala malik dövlət olduğunu bir daha təsdiqləmişdir.

# "İnfrastrukturun yenilənməsi və keyfiyyət anlayışı" mövzusunda təlim keçirilmişdir

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti kadr potensialının gücləndirilməsi, işçilərin peşə hazırlığının artırılması istiqamətində tədbirləri davam etdirir. "Azərsu" ASC-nin Türkiyənin Gedik Universiteti və UGETAM şirkəti ilə əməkdaşlığı çərçivəsində mart ayının 11-də "İnfrastrukturun yenilənməsi və keyfiyyət anlayışı" mövzusunda növbəti təlimə start verilmişdir. Bu məqsədlə Türkiyənin bir sıra təhsil və sənaye müəssisələrinin rəhbər və mütəxəssislərindən ibarət nümayəndə heyəti ölkəmizə gəlmişdir.**

Təlim proqramının açılış mərasimində çıxış edən "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov layihələrin keyfiyyətlə icra olunmasında, eləcə də infrastrukturun idarəedilməsində yeni texnologiyaların tətbiqinə ciddi diqqət yetirildiyini bildirmişdir. Bu sahədə qabaqcıl təcrübənin mənimsənilməsi və tətbiqi məqsədi ilə müxtəlif ölkələrin, o cümlədən Türkiyənin şirkətləri ilə sıx əməkdaşlıq edilir. Bütün bunlar nəzərə alınaraq "Azərsu" ASC-nin mütəxəssisləri ölkə daxilində və xaricdə təşkil olunan təlimlərə cəlb edilirlər. Son 2 ildə təşkil olunmuş 75 təlimə Səhmdar Cəmiyyətin 1600-ə yaxın işçisi cəlb olunmuşdur. Mütəxəssislərin 240 nəfəri Türkiyə Su İnstitutu, İstanbul şəhər Sukanal İdarəsi, 12 rəhbər işçi isə İzmit Sukanal İdarəsində istehsalat sahələri ilə tanış olmaq imkanı əldə etmişlər. Təlimlərdə layihələndirmə, tikinti, mexanika, energetika, avtomatika, içməli su və çirkab sutəmizləyici qurğuların istismarı, abonent işləri, informasiya kommunikasiya texnologiyaları, tikinti və digər sahələr üzrə mütəxəssislər iştirak etmiş, böyük təcrübə qazanmışlar. "Azərsu" ASC-nin sədri belə tədbirlərin təşkilinin əhəmiyyətli olduğunu və təlimlərin gələcəkdə də davam etdirilməsinin vacibliyini bildirmişdir.



Təlim keçmək üçün dəvət olunmuş Türkiyənin "Gedik Holdinq" şirkətinin rəhbəri Mustafa Koçak, Türkiyə Respublikasının ölkəmizdəki səfirinin müşaviri Meral Barlas, Gedik Universitetinin müəllimi Erkan Gezer, UGETAM şirkətinin idarə heyətinin rəhbəri Ümit Doğay Arınç çıxış edərək təlimlərin əhəmiyyətini vurğulamış, bu sahədə Azərbaycan şirkətlərinə kömək etməkdə maraqlı olduqlarını bildirmişlər.

4 gün davam etmiş təlimlərdə "Azərsu" ASC-nin əməkdaşlarına, həmçinin su və kanalizasiya layihələrini icra edən podratçı şirkətlərin mütəxəssislərinə qaynaq texnologiyaları, içməli suyun təmizlənməsi və nəqli, tullantı suların zərərsizləşdirilməsi, sayğaclaşma və digər məsələlərlə bağlı təlimlər verilmişdir.



# Dünya Bankının mütəxəssisləri "Azərsu" ASC-də olmuşlar

***Martın 19-da "Azərsu" Açıq Səhmdar Cəmiyyətində Dünya Bankının nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi"nin icra vəziyyəti müzakirə edilmişdir.***

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov Azərbaycan hökuməti ilə Dünya Bankı arasında əməkdaşlığın böyük tarixi olduğunu xatırladaraq bankın ölkəmizdə həyata keçirilən sosial və infrastruktur layihələrində yaxından iştirakını yüksək qiymətləndirmişdir. Səhmdar Cəmiyyətin sədri Dünya Bankı ilə birgə maliyyələşdirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi"nin icrası nəticəsində Qəbələ, Şamaxı, Saatlı və Sabirabad şəhərlərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulduğunu qeyd etmiş və bu sahədə işlərin qrafikə uyğun icra edildiyini bildirmişdir.



Azərbaycan hökuməti ilə əməkdaşlıqdan məmnunluğunu bildirən Dünya Bankının Azərbaycan üzrə meneceri xanım Larisa Leşçenko Azərbaycanda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinə ölkə rəhbərliyi tərəfindən böyük diqqət yetirildiyini bildirmiş, bu sahədə görülən işləri yüksək qiymətləndirmişdir.

Dünya Bankının su təchizatı məsələləri üzrə aparıcı mütəxəssisi Manuel Marino təmsil etdiyi qurumun Azərbaycanda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasına bundan sonra da dəstək veriləcəyini diqqətə çatdırmışdır.

Görüşdə "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi" çərçivəsində görülən işlər, layihələrin icrasında yeni texnologiyaların tətbiqi və digər məsələlərlə bağlı müzakirələr aparılmışdır.



# Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin nümayəndə heyəti ilə görüş keçirilmişdir

***"Azərsu" Açıq Səhmdar Cəmiyyətində Azərbaycanda səfərdə olan Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) prezidenti Kim Young Mokun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycan hökuməti ilə KOICA-nın birgə maliyyələşdirdiyi "Azərbaycanda Abşeron Yarımadasında Su Çatışmazlığı üzrə Ümumi Həll: Abşeron Yarımadasının Kürdəxanı Qəsəbəsində Su Təchizatı və Kanalizasiya Sisteminin Yaradılması" layihəsi ilə bağlı müzakirələr aparılmışdır.***

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov Bakı şəhəri və onun qəsəbələrində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən layihələr barədə qonaqlara ətraflı məlumat vermişdir. Ölkə rəhbərliyinin içməli su və kanalizasiya layihələrinə böyük diqqət ayırdığını qeyd edən Səhmdar Cəmiyyətin sədri bu sahədə Koreya hökumətinin fəaliyyətini yüksək qiymətləndirmiş, layihənin su çatışmazlığı probleminin həllinə töhfə verəcəyini bildirmişdir.

KOİCA-nın prezidenti Kim Young Mok bildirmişdir ki, bu layihənin icrası nəticəsində Kürdəxanı qəsəbəsində yerli sakinlər keyfiyyətli içməli su ilə təchiz olunacaq.



Bu layihə gələcəkdə tullantı suların səmərəli idarə olunmasına, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına və yerli əhalinin sağlamlığına əhəmiyyətli töhfə verəcəkdir. Cənab Kim layihənin 70 faiz icra olunduğunu xatırladaraq bu sahədə işlərin tezliklə başa çatdırılacağına ümid etdiyini bildirmişdir.

Görüşdə "Pirşağı Çirkab Su Təmizləyici Qurğusu" layihəsi üzrə Koreyanın İxrac-İdxal Bankı ilə martın 11-də imzalanmış sazişə də toxunulmuş və bildirilmişdir ki, bu layihə ekoloji vəziyyətin yaxşılaşmasına töhfə verəcəkdir.



# "Azərsu" ASC "Caspian Energy Integration Award - 2014" mükafatına layiq görülmüşdür

**Martın 12-də Bakıda "JW Marriott Absheron" otelində beynəlxalq "Caspian Energy Integration Award - 2014" mükafatının onuncu yubiley təqdimat mərasimi keçirilmişdir.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov mərasimdə çıxış edərək bildirmişdir ki, "Əsrin müqaviləsi"nin imzalanması, Xəzərin enerji ehtiyatlarının işlənilməsinə Qərb şirkətlərinin cəlb edilməsi, Xəzər regionundan alternativ ixrac marşrutlarının və nəqliyyat-kommunikasiya xətlərinin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi nəticəsində Cənubi Qafqaz ölkələrinin və bütövlükdə Xəzər dənizi və Qara dəniz regionunun geosiyasəti və iqtisadiyyatı tamamilə dəyişmişdir.

Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə, Rabitə və yüksək texnologiyalar nazirinin müavini İltimas Məmmədov, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti Süleyman Qasımov və "Caspian European Club"un baş icraçı direktoru Telman Əliyev dövlət strukturlarının, şirkətlərin və təşkilatların əməkdaşlığının genişləndirilməsində informasiya layihələrinin əhəmiyyətindən danışmışlar.

Daha sonra ayrı-ayrı nominasiyalar üzrə mükafatların təqdimatı olmuşdur. "Azərsu" ASC-nin içməli su təsərrüfatının inkişafında həyata keçirdiyi genişmiqyaslı tədbirlər yüksək qiymətləndirilmiş və Səhmdar Cəmiyyət "Caspian Energy Integration Award - 2014" mükafatına layiq layiq görülmüşdür. Mükafat "Azərsu" ASC sədrinin birinci müavini Teyyub Cabbarova təqdim edilmişdir.

Qeyd edək ki, Beynəlxalq "Caspian Energy Integration Award" mükafatı dünyanın 50 ölkəsində internet vasitəsilə keçirilmiş sorğunun nəticələrinə əsasən müəyyən olunur. Mükafatlar Xəzər dənizi-Qara dəniz və Baltik regionlarında qazanılmış nailiyyətlərə görə siyasi xadimlərə, dövlət məmurlarına, diplomatik nümayəndəliklərə, dövlət və özəl şirkətlərə təqdim edilir.






# CATEC - 2014

# 10-12 aprel 2014-cü il tarixlərində II Xəzər Beynəlxalq Su Texnologiyaları sərgi və konfransı keçiriləcək

***10-12 aprel 2014-cü il tarixlərində II Xəzər Beynəlxalq Su texnologiyaları (CATEC 2014) sərgi və konfransı keçiriləcək. Bakı Ekspo Mərkəzində təşkil olunacaq sərgi Xəzəryanı regionda su texnologiyaları üzrə nailiyyətlərin nümayiş etdirildiyi yeganə ixtisaslaşdırılmış tədbirdir. Sərgi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin təşəbbüsü və rəsmi dəstəyi ilə təşkil olunur. Sərginin təşkilatçısı qismində isə "Iteca Caspian" MMC çıxış edir.***

Ölkədə içməli su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi, bu sahədə yeni texnologiyaların tətbiqinin genişləndirilməsi ilə əlaqədar su texnologiyalarına həsr olunmuş sərgi və konfransın keçirilməsi olduqca aktualdır. CATEC 2014 sərgisinin məqsədi su təchizatı, tullantı və yağış sularının idarə olunması, habelə boru kəməri mühəndisliyi sahələrində ən yeni texnologiyaların tətbiqinə şərait yaratmaq, təcrübə mübadiləsini artırmaq, beynəlxalq əməkdaşlığı genişləndirməkdən ibarətdir. Sərgi uzunmüddətli işgüzar əlaqələr qurmaq baxımından iştirakçılar üçün əlverişli fürsətdir.

CATEC 2014 sərgisində su təchizatı və tullantı sularının təmizlənməsi sistemləri, mikrotunel tikintisi, suyun analizi üçün ölçmə və tənzimləmə texnologiyaları, pompalar, borular, nasos sistemləri, hidrantlar, tikinti texnikası və avadanlıqları, geotermal texnologiyalar, su təchizatı və kanalizasiya sahəsində tətbiq olunan digər ən yeni texnologiyalar nümayiş etdiriləcək.

CATEC 2014 sərgisində Azərbaycan, Avstriya, Belarus, Almaniya, Danimarka, İsrail, İtaliya, Kanada, Litva, Rusiya, ABŞ, Türkiyə və İsveçrədən aparıcı texnologiya şirkətləri və təchizatçıların, habelə ekologiya və tikinti şirkətlərinin iştirakı gözlənilir. Sərgi iştirakçıları arasında "Azərsu" (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti, "Akkord" (Azərbaycan), "Amiad Water Systems" (İsrail), "AVK" (Danimarka), "Culligan" (ABŞ), "Elektromed" (Türkiyə), "Erkon" (Türkiyə), "Flotenk" (Rusiya), "GEA Westfalia" (Almaniya), "Greenworks" (Litva), "Grundfos" (Danimarka), "Krohne Anlagen" (Almaniya), "KWI International" (Avstriya), "Nirosoft" (İsrail), "Sampro Canada" (Kanada), "Sulzer" (İsveçrə), "Turan Makina" (Türkiyə), "Valvotubi Ind" (İtaliya), "Kommunalnik" (Belarus) və digər şirkətlər var.

CATEC 2014 sərgisi ilə yanaşı, "JW Marriott Absheron Baku" otelində 2-ci Xəzər Beynəlxalq Su Texnologiyaları konfransı keçiriləcək və bu konfrans qabaqcıl texnologiyaların nümayişi ilə sənayenin aktual məsələlərinə həsr olunmuş müzakirənin səmərəli şəkildə bir araya gətirilməsinə imkan yaradacaqdır. Konfrans "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin rəsmi dəstəyi və fəal iştirakı ilə təşkil olunacaq. Konfransın proqramı barədə daha ətraflı məlumatı sərginin rəsmi veb-saytından (www.catec.az <http://www.catec.az/>) əldə etmək mümkündür.

# "Pirşağı Çirkab Su Təmizləyici Qurğusu" layihəsi üzrə razılaşma sazişi imzalanmışdır

**Martın 11-də Azərbaycan Respublikası hökuməti və Koreya Respublikası hökuməti arasında "Pirşağı Çirkab Su Təmizləyici Qurğusu" layihəsinin maliyyələşdirilməsini nəzərdə tutan razılaşma sazişinin imzalanma mərasimi keçirilmişdir.**

İmzalanma mərasimində Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında ikitərəfli münasibətlərin bir çox sahələri əhatə etdiyi bildirilmiş, iqtisadi, mədəni, neft-kimya, enerji, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanmışdır.

Razılaşma sazişini Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Koreya Respublikasının Azərbaycandakı səfiri Çoy Suk imzalamışdır.

Sazişə əsasən, layihənin maliyyələşdirilməsi üçün Koreyanın İxrac-İdxal Bankının İqtisadi İnkişaf üzrə Əməkdaşlıq Fondu 43,5 milyon dollar kredit ayıracaq. Ümumi dəyəri 64,2 milyon dollar olan layihənin qalan hissəsini Azərbaycan hökuməti maliyyələşdirəcəkdir. Bu vəsait hesabına Pirşağı qəsəbəsi yaxınlığında bioloji tipli çirkab sutəmizləyici qurğu tikiləcəkdir. Müasir tipli çirkab sutəmizləyici qurğunun məhsuldarlığı sutkada 40 min kubmetr təşkil edəcək.



Pirşağı çirkab sutəmizləyici qurğusunun tikintisi Xəzər dənizinin ekoloji təhlükəsizliyinin qorunmasına töhfə verəcəkdir. Yeni qurğu istismara verildikdən və ətraf qəsəbələrdə kanalizasiya infrastrukturu yaradıldıqdan sonra Abşeron yarımadasının şimal hissəsində böyük bir ərazidə yaranan tullantı sularının birbaşa Xəzər dənizinə axıdılmasının qarşısı alınacaqdır. Gələcəkdə Pirşağı, Kürdəxanı, Məhəmmədi, Nardaran, Digah, Maştağa və digər yaşayış məntəqələrində toplanan tullantı suları da bu qurğuda təmizlənərək zərərsizləşdiriləcək.

Qeyd edək ki, razılaşma sazişinin ardınca yaxın vaxtlarda "Pirşağı Çirkab Su Təmizləyici Qurğusu" layihəsinin maliyyələşdirilməsini nəzərdə tutan kredit sazişi imzalanacaqdır.

# Mühasib və iqtisadçılar üçün seminar keçirilmişdir

**Martın 18-də "Azərsu" ASC-də "İqtisadi-maliyyə göstəriciləri üzrə hesabatların və proqnozların hazırlanması mövzusunda praktiki seminar keçirilmişdir. Seminar Səhmdar Cəmiyyətin struktur vahidlərinin mühasibatlıq və iqtisadiyyat sektoru mütəxəssislərinə metodoloji-praktiki köməklik göstərilməsi məqsədilə təşkil olunmuşdur. Tədbirdə "Azərsu" ASC-nin tabeliyində olan müəssisə və təşkilatların baş mühasibləri və iqtisadi təhlil və proqnozlaşdırma şöbələrinin rəisləri, iqtisadçılar və mərkəzi idarəetmə aparatının aidiyyəti işçiləri iştirak etmişlər.**

Səhmdar Cəmiyyətin iqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi Zahid Daşdəmirov seminarda çıxış edərək, bu tədbirin keçirilməsinin əsas məqsədlərini və nəzərdə tutulan tematik mövzuları iştirakçıların diqqətinə çatdırmışdır. Qeyd olunmuşdur ki, effektiv uçot sisteminin təşkili hesabatların hazırlanmasında operativliyin təmin edilməsi və təhlili, müəssisənin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində təkliflərin hazırlanmasında, səmərəli idarəetmə qərarlarının qəbul edilməsində və proqnozların tərtib edilməsində mühüm əhəmiyyət kəsb edir.



Seminarda operativ uçot, statistika, maliyyə (mühasibat), idarəetmə uçotu və hesabatlarının əsasları, prinsipləri, məqsədləri, təqdim olunması qaydaları və təyinatı barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Cəmiyyətin 10 dekabr 2013-cü il tarixli 651 nömrəli əmri ilə təsdiq olunmuş ""Azərsu" ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına görə idarəetmə uçotu üzrə hesabatların hazırlanması və təqdim olunması Qaydaları" geniş şərh edilmişdir. Bununla yanaşı struktur vahidlərin fəaliyyət xüsusiyyətləri və məqsədlərinə müvafiq olaraq uçot sisteminin təşkil edilməsinin, dövrü hesabatların, cari və uzunmüddətli proqnoz göstəricilərinin hazırlanmasının əsas istiqamətləri izah edilmişdir. Tədbirdə müvafiq hesabat formalarının hazırlanması qaydaları nümunələr üzərində vizual olaraq təqdim olunmuşdur.

Hesabatların hazırlanması, təqdim olunması, proqnoz göstəricilərinin tərtib edilməsi barədə verilən metodoloji və praktiki tövsiyyələr maraqla dinlənilmişdir.



# Təlimlər mütəxəssislərin

Əhməd Mete Saatçı 1972-ci ildə Orta Doğu Texniki Unliversitetini kimya mühəndisliyi fakültəsini bitirmişdir. 1973-1976-cı illərdə İstanbul Texniki Universitetində, 1976-1979-cu illərdə isə ABŞ-nin Ayova Universitetində çalışmış və doktorantura keçmişdir.1980-1990-ci illərdə fəaliyyətini Kral Əbdüləziz Universitetində davam etdirmişdir. 1990-ci ildə Mərmərə Universitetinin Ətraf Mühit üzrə mühəndislik fakültəsində çalışmışdır. Türkiyə və xarici ölkələrdə ekologiya, su kimyası, içməli su və tullantı su təmizləyici qurğuların yaradılması və idarəedilməsi sahəsində tədris işləri ilə məşğul olmuşdur. İstanbul, Bursa, Fethiyə, Kayseri, Siirt, Malatya, Konya, Samsun şəhərlərində çirkab sutəmizləyici qurğuların yaradılmasında məsləhətçi kimi iştirak etmişdir. 2009-cu ildə İstanbulda keçirilən 5-ci Dünya Su Forumunun baş katibinin müavini olmuşdur. Hazırda Türkiyə Su İnstututunun rəhbəri vəzifəsində çalışır.

## *Əhməd Mete Saatçı: "Azərbaycanlı mütəxəssislərin bilik səviyyəsi, intizamı və etik davranışları təlimlərə qatılan xarici ölkə vətəndaşları üçün nümunə olmuşdur"*

***"Azərsu" Açıq Səhmdar Cəmiyyətində kadr potensialının gücləndirilməsi, işçilərin peşə hazırlığının artırılması məqsədi ilə tədbirləri 2014-cü ildə də davam etdirəcəkdir. "Azərsu" ASC-nin Türkiyənin TeknoYapı şirkəti ilə əməkdaşlığı çərçivəsində İstanbul şəhərində təşkil edilmiş təlim kurslarının bu il də davam etdirilməsi nəzərdə tutulur. İstanbulda təşkil edilən təlimlərdə Türkiyə Su İnstitutunun da böyük xidmətləri vardır. İnstitutun rəhbəri professor Əhməd Mete Saatçı bu yaxınlarda Azərbaycanda olmuş, təlimlərin təşkili ilə bağlı suallarımızı cavablandırmışdır.***

***- Əhməd bəy, əvvəlcə istərdik rəhbərlik etdiyiniz Türkiyə Su İnstututu barədə qısa məlumat verəsiniz.***

- Türkiyə Su İnstututu (SUEN) 2011-ci ildə yaradılmışdır. 5-ci Dünya Su Forumunun yüksək səviyyədə təşkili beynəlxalq aləmdə müsbət qarşılanmışdır. Xarici ölkələrin çoxunda olduğu kimi Türkiyədə də su strategiyasının hazırlanması və bu sahədə tövsiyələrin verilməsi üçün məsləhətçi bir qurumun yaradılması ideyası ortaya çıxdı. SUEN bu məqsədlə yaradıldı və bu İnstitutun fəaliyyəti Türkiyə üçün önəm daşıyır. Xüsisilə Türkiyənin xarici ölkələrlə su sahəsində əməkdaşlığının genişləndirilməsində SUEN-nin böyük rolu olmuşdur. Hazırda toplantı və forumlarla yanaşı xaricdən gəlmiş mütəxəssislərə təlimlər veririk. Bu sahədə "Azərsu" ASC ilə də geniş əməkdaşlıq edirik.

***- Su ehtiyatlarından səmərəli istifadə bütün dünyada aktual məsələlərdəndir. Bu strategiyanın əsas prinsipləri nədən ibarətdir?***

- Bildiyiniz kimi su ehtiyatı məhdud olan ölkələrdə bu məsələ xüsusi diqqətdə saxlanılır. İqtisadi tərəqqi, əhali artımı, kənd təsərrüfatının inkişafı suya ehtiyacı artıran faktorlardır. Buna görə də sudan səmərəli istifadə günümüzün ən vacib məsələlərindəndir. İçməli su ehtiyatı olan hövzələrin ekoloji vəziyyətinin qorunması, suyun itkisiz və optimal şəkildə istehlakçılara çatdırılması xüsusi əhəmiyyət kəsb edir. Hesab edirəm ki, su ehtiyatları ilə bağlı məsələlər heç də bir ölkə ilə məhdudlaşmamalıdır bu məsələyə qlobal müstəvidə yanaşılmalıdır.

# peşəkarlığının artırılmasına töhfə verir

***- Artıq 2 ildir ki, "Azərsu" ASC-nin mütəxəssisləri qabaqcıl texnologiyaların öyrənilməsi məqsədi ilə Türkiyəyə ezam olunur və təlimlərdə iştirak edir. Mütəxəssislərimizin bilik səviyyəsi barədə qənaətiniz necədir?***

- 2012-ci və 2013-cü illərdə təşkil olunmuş təlimlərdə Azərbaycandan 240 mütəxəssis iştirak etmişdir. Əgər ilk təlimlərə 80 nəfər qatılmışdırsa, 2013-cü ildən qarşılıqlı razılıq əsasında onların sayı 2 dəfə artırılaraq 160-a çatdırıldı. İndiyədək keçirilmiş təlimlərdə əsasən ümumi biliklər verilmişdir. Növbəti təlimlər daha ixtisaslaşmış olacaqdır, yəni iştirakçılara daha dərin biliklər vermək niyyətindəyik. Azərbaycanlı mütəxəssislərin bilik səviyyəsinə gəlincə, Türkiyə Su İnstitutu olaraq onların bilik və bacarıqlarından çox razıyıq. Xüsusilə intizam və etik davranış məsələlərində onlar nümunəvidirlər. Bizim başqa ölkələrdən də dinləyicilərimiz var. Amma sizin mütəxəssislərin təlimləri dinləmək mədəniyyəti olduqca yüksəkdir və bütün bunlar mənə öz gəncliyimi xatırladır. Gənc olmalarına baxmayaraq, iştirakçıların təlim prosesində yeni texnologiyalar və qabaqcıl təcrübələrin öyrənilməsinə böyük həvəs və maraq göstərdiklərinin şahidi olduq. Ümid edirəm ki, iştirakçılar təlimlərdə qazandıqları təcrübəni gələcək fəaliyyətlərində uğurla tətbiq edəcəklər.

***- Təlim müddətində mütəxəssislər bilik və bacarıqlarını artırmaq üçün hansı imkanlardan yararlanırlar?***

- Qeyd edim ki, təlimlər təxminən 2 həftəlik bir dövrü əhatə edir. Təbii ki, öyrənilsi məsələlər çox, vaxt isə məhduddur. Buna baxmayaraq tədbirlərin səmərəli təşkili üçün bütün imkanlardan istifadə olunmuşdur. Təlim müddətində mütəxəssislərə nəzəri biliklər verilmiş və onlar istehsalat sahələrində təcrübə keçmişlər. Bizim yüksək ixtisaslı alim və mütəxəssislərimiz içməli su və tullantı suların idarəedilməsi haqqında dərslər keçmişlər. Nəzəri biliklərlə yanaşı, iştirakçıların istehsalat sahələrinə göndərilməsini təmin etdik. Mən burada tullantı suların təmizlənməsi qurğularına səfərləri xüsusi qeyd etmək istərdim. Biz mütəxəssislərə çirkab suların axıdılması və təmizlənməsi proseslərini əyani şəkildə izah etdik. Hətta nailiyyətlərimizlə yanaşı, çatışmazlıqlar barədə də onları məlumatlandırdıq. Hesab edirəm

**Türkiyə Su İnstitutu olaraq azərbaycanlı mütəxəssislərin bilik səviyyəsindən və bacarıqlarından çox razıyıq. Xüsusilə intizam və etik davranış məsələlərində onlar nümunəvidirlər.**

ki, məsələlərə bu cür yanaşma mütəxəssislərin hərtərəfli formalaşmasına kömək edir.

İstanbul Su və Kanalizasiya İdarəsində keçirilən təcrübə də maraqlı idi. Mütəxəssislər idarənin iş prinsipi ilə yaxından tanış oldular. Təlim iştirakçıları burada yüksək səviyyəli mütəxəssislərlə görüşdülər, müxtəlif şöbə və laboratoriyaların iş prinsipi ilə tanış olmaq imkanı əldə etdilər.

***- "Azərsu" ASC ilə əməkdaşlığın perspektivləri barədə nə deyə bilərsiniz?***

- Təlimləri bundan sonra da davam etdirmək niyyətindəyik. Qeyd etdiyim kimi, növbəti mərhələdə təlimlər daha ixtisaslaşmış səviyyədə olacaqdır. Hansı sahələr üzrə təlim keçiriləcəyi barədə indidən bir şey demək çətindir. Yaxın vaxtlarda biz yenidən Azərbaycana səfər etməyi planlaşdırırıq. Səfər çərçivəsində bir həftəlik dərslər vermək niyyətindəyik. Növbəti təlim proqramı ətrafında da müzakirələr aparılacaq.

Təlim elə bir şeydir ki, onun sonu ola bilməz. İnsan nə qədər öyrənsə də, biliklərə sahib olsa da yenə də axtarışda olmalıdır. Ümidvaram ki, bu prinsiplərə əsaslanmaqla "Azərsu" ASC-nin gənc mütəxəssisləri yüksək nailiyyətlər qazanacaq və Azərbaycanın inkişafına öz töhfələrini verəcəklər.



# “Hər kağızı bir yarpağa dəyişək" aksiyasında 768 kq kağız təhvil verilmişdir

“Azərsu” Açıq Səhmdar Cəmiyyəti ətraf mühitin qorunması və ekoloji sabitliyin təmin olunması və bu sahədə maarifləndirmə işlərinin aparılması məqsədi ilə həyata keçirilən tədbirlərdə yaxından iştirak edir. İDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi, “ASAN xidmət” və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə həyata keçirilən "Hər kağızı bir yarpağa dəyişək" adlı aksiyaya “Azərsu” ASC növbəti töhfəsini vermişdir. Səhmdar Cəmiyyətdə istifadə olunmuş 768 kq kağız martın 14-də “ASAN xidmət” mərkəzinə təqdim olunmuşdur.

Qeyd edək ki, 17 fevral 2014-cü il tarixdə 350 kq kağız tullantıları təhvil verilmişdir. Bu xeyirxah təşəbbüsə qoşulan Səhmdar Cəmiyyətin kollektivi gələcəkdə də bu aksiyada yaxından iştirak edəcəkdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi İDEA İctimai Birliyinin təşəbbüsü ilə baş tutan layihə "Təbiətin qorunması üçün 10 mesaj" devizi ilə həyata keçirilir. Layihənin həyata keçirilməsində əsas məqsəd cəmiyyətin ekoloji problemlərlə mübarizədə bütün təbəqələrinin iştirakını təmin etmək və onları bu işə cəlb etmək, real ekoloji layihələr vasitəsi ilə insanlar arasında maarifləndirmə işini effektiv şəkildə artırmaq və ekoloji mühitə dəyən zərəri minimuma endirmək məqsədilə tullantıların düzgün istifadəsini təşkil etməkdir.




Layihə çərçivəsində dövlət qurumları, özəl təşkilatlar və vətəndaşlar tərəfindən istifadə olunmuş kağızlar Bakı şəhərindəki "ASAN xidmət" mərkəzlərinin qarşısında quraşdırılmış xüsusi məntəqələrə təhvil verilir. Təhvil verilən kağızlar xüsusi konteynerlərdə toplanılır və onların qeydiyyatı aparılır. Layihəyə əsasən hər 50 kq kağız qarşılığında bir ədəd ağacın alınması və həmin ağacın Bakı şəhəri ərazisində əkilməsi planlaşdırılır.

# 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə tədbir keçirilmişdir




**8 mart – Beynəlxalq Qadınlar günü** münasibətilə “Azərsu” Açıq Səhmdar Cəmiyyətində tədbir keçirilmişdir. Bu əlamətdar gün münasibəti ilə “Azərsu” ASC-nin qadın əməkdaşlarını rəhbərlik adından təbrik edən Səhmdar Cəmiyyətin sədrinin birinci müavini Teyyub Cabbarov 8 mart – Beynəlxalq Qadınlar gününün yaranma tarixinə nəzər salaraq bu bayramın dünyanın əksər ölkələrində qeyd olunduğunu bildirmişdir. Milli-mənəvi dəyərlərin əsrlər boyu yaşadılmasında Azərbaycan qadınlarının misilsiz xidmətlərinin olduğunu xatırladan T.Cabbarov müasir dövrdə də qadınların ölkəmizin ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak etdiyini vurğulamışdır. *“Xalqımızın ümummilli lideri Heydər Əliyev qadınların cəmiyyətdə rolunun yüksəldilməsi istiqamətində böyük işlər görmüş, cəmiyyətdə qadınların rolunun artırılması məsələsini daim diqqətdə saxlamışdır. Bu ənənələrə sadiq qalan Heydər Əliyev kursunun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev qadınların ictimai-siyasi fəallığının artırılmasına xüsusi önəm vermişdir. Onun rəhbərliyi ilə gender siyasəti, ailə və uşaqlara dövlət qayğısı istiqamətində geniş tədbirlər həyata keçirilmişdir. Azərbaycan qadınının qarşılaşdığı problemlərin həllində, uşaqların sağlamlığının qorunması, təhsili və tərbiyəsi sahəsində Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da misilsiz xidmətləri vardır”.*

T.Cabbarov içməli su təsərrüfatı sektorunda mühüm nailiyyətlərin əldə edilməsində qadınların böyük əməyinin olduğunu bildirmişdir. Qadınların üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi və cəmiyyətdə fəal mövqe tutması yüksək qiymətləndirilmişdir.

Tədbirin sonunda “Azərsu” ASC-nin xanım əməkdaşlarına bayram hədiyyələri təqdim edilmişdir.

Qeyd edək ki, “Azərsu”ASC-də çalışan 12107 işçinin 2417 nəfərini qadınlar təşkil edir. Qadın işçilərin 666 nəfəri rəhbər və mütəxəssis vəzifələrində çalışır.

# Novruz bayramı münasibətilə şənlik keçirilmişdir



***Novruz bayramı münasibəti ilə “Azərsu” ASC-də silsilə bayram tədbirləri keçirilmişdir. “Azərsu” ASC-nin Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkil etdiyi bayram şənliyində ASC Aparatının əməkdaşları iştirak etmişdir.***



“Azərsu” ASC rəhbərliyi adından təbriklərini çatdıran Səhmdar Cəmiyyətin sədr müavini Mahir Məmmədov bildirmişdir ki, Novruz bayramı qədim dövrlərdən Azərbaycanda bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü kimi qəbul edilmişdir. Bahar mərasimləri, adət-ənənələri əsrlərin sınağından çıxaraq, ulu babalarımızdan bizə yadigar qalmışdır. Novruz bayramı müstəqil Azərbaycan dövlətinin rəsmi bayramı olaraq respublikamızın hər bir guşəsində kütləvi şənliklərlə qeyd edilir. Yaz bayramı insanlarda qurub-yaratmaq əzmini artırır, yenilik ovqatı yaradır.

Novruz adət-ənənələrinin günümüzədək layiqincə yaşadılması Azərbaycan xalqının çoxəsrlik tariximiz qarşısında müstəsna xidmətidir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin soy-kökə qayıdış istiqamətində başladığı milli mədəni hərəkatın əsas atributlarından olan Novruz bayramına milli bayram statusu verməsi, bu bayramın yüksək səviyyədə keçirilməsinə şərait yaratmışdır. Ulu öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyev Novruz bayramının ölkəmizdə kütləvi şəkildə qeyd edilməsinə diqqət və qayğı göstərir. Əziz bayramımızın YUNESKO-nun mədəni irs siyahısına daxil edilməsi Prezident İlham Əliyev, eləcə də YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın fəaliyyətinin nəticəsidir.

Yazın gəlməsi təbiətin, o cümlədən suyun təzələnməsi deməkdir: “Su təsərrüfatı işçiləri olaraq bizi növbəti mövsümdə yeni-yeni işlər və vəzifələr gözləyir. Ötən müddətə nəzər salanda respublikanın su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirildiyinin şahidi oluruq. Bu bizə qürur verməklə yanaşı məsuliyyət hissimizi də artırır. Dövlət başçısının qarşımızda qoyduğu tapşırıqlara uyğun olaraq əhalini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin etmək üçün fəaliyyətimizi bundan sonra daha da gücləndirəcəyik”.

Bayram tədbiri rəngarəng konsert proqramı ilə davam etdirilmişdir. Mədəniyyət və incəsənət ustalarının ifasında səslənən musiqi nümunələri tədbir iştirakçılarına xoş ovqat bəxş etmişdir.

# Novruz bayramı ərəfəsində məcburi köçkün ailələrinə ərzaq yardımı edilmişdir

Azərbaycan Respublikası Prezidentinin 01 iyul 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq “Azərsu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Novruz bayramı münasibəti ilə Saatlı rayonunda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə ərzaq yardımı edilmişdir.

Un, yağ, şəkər tozu, qənd, düyü və digər məhsullardan ibarət ərzaq yardımı Saatlı rayonunda məskunlaşmış Füzuli, Ağdam, Cəbrayıl, Laçın və Zəngilan rayonlarından olan 2257 nəfərdən ibarət 593 məcburi köçkün ailəsinə verilmişdir.

“Azərsu” ASC-nin və Azərbaycan Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları məcburi köçkün ailələrinə ərzaq yardımının paylanmasını təmin etmişlər.



Novruz bayramı ərəfəsində Səhmdar Cəmiyyətin əməkdaşları 7 saylı fiziki-əqli qüsurlu uşaqlar üçün internat məktəbinə hədiyyələr təqdim etmiş, bayram şənliyi keçirmişlər.




*BMT Baş Assambleyasının 22 fevral 1993-cü il tarixli qərarına əsasən 22 mart Dünya Su Günü kimi qeyd olunur. Bununla bağlı ilk təklif 1992-ci ilin iyununda BMT-nin Ətraf Mühitin Mühafizəsi və İnkişafı Konfransında irəli sürülüb. Dünya Su Gününün qeyd olunmasında məqsəd su resurslarının mənimsənilməsi səviyyəsinin öyrənilməsi, şirin su mənbələrinin çirklənmədən qorunması, içməli sudan qənaətlə istifadə ilə bağlı maarifləndirmənin təmin edilməsidir. BMT-nin proqnozlarına görə 2025-ci ildə dünya əhalisinin 3,2 milyard nəfəri su çatışmazlığından əziyyət çəkəcək.*

Qeyd edək ki, Yer kürəsinin təqribən 71 faizini su təşkil etsə də, bunun cəmi 2,5 faizi içməyə yararlıdır. Planetimizdə içməli suyun 2/3-si buzlaqların payına düşür. Çayların payına isə ümumi şirin su ehtiyatlarının cəmi 0,01 faizi düşür.

Məhdud su ehtiyatlarına malik Azərbaycanda da içməyə yararlı sular qeyri-bərabər paylanmışdır. Hazırda ölkənin yerüstü su ehtiyatları 30-31 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20,3 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır. Ölkə ərazisində su ehtiyatlarının məhdudluğuna və şirin su ehtiyatlarının həcminə görə Cənubi Qafqazın ən "kasıb" ölkəsi olmasına baxmayaraq, Azərbaycan adambaşına düşən suyun miqdarına görə dünyanın bir çox ölkələrindən irəlidədir.

20-ci əsrdə dünya əhalisinin sayı 3 dəfə artdığı halda içməli sudan istifadə 7 dəfə yüksəlib. Mənzillərdə içməli suyun istifadəsi isə 13 dəfə artıb. Başqa bir müqayisə, Yer kürəsində ümumi su balansı sabit saxlanıldığı halda, təxminən son 50 ildə məişətdə su sərfi 31, sənayedə 39, kənd təsərrüfatında isə 28 dəfə artıb. Nəticədə dünyada hər 6 insandan biri içməli su çatışmazlığından əziyyət çəkir. Beynəlxalq təşkilatların hesablamalarına görə, su ilə bağlı xəstəliklər hər səkkiz saniyədə 1, bir ildə isə 3 milyon 888 min uşağın ölümünə səbəb olur. İnkişaf etməkdə olan ölkələrdə 80 faiz xəstəliklər standartlara uyğun olmayan içməli sudan istifadə nəticəsində yaranır. Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, hazırda dünya əhalisinin 80 faizi keyfiyyətsiz, 40 faizi isə çirkli, ziyanlı sudan istifadə edir. Dünyanın əksər ölkələrində təmiz su ilə təminat kəskin problemə çevrildiyindən eybəcər, qüsurlu, müxtəlif fəsadlarla doğulan körpələrin sayı 12-14 faiz, bir yaşa qədər ölənlərin sayı isə təxminən 18-20 faiz artıb.

Bir çox alimlər isə hesab edirlər ki, qlobal su problemi suyun çatışmazlığı ilə deyil, onun səmərəsiz istifadəsi ilə bağlıdır. Müasir dövrün ən aktual məsələlərindən biri qida məhsullarının istehsalı zamanı sudan izafi dərəcədə istifadə olunmasıdır.

Suya tələbat artdıqca sudan istifadəyə çəkilən xərclər də çoxalır. Bu isə nəticədə suyun maya dəyəri artır və tariflər yüksəlir. Qiymətlərin tənzimlənməsi üçün dünya ölkələrində çəkilən xərclərin ümumi məbləği 33 milyard dolları keçir. Suyun təmizlənməsi və daşınmasına çəkilən xərclər dünyada il ərzində təqribən 90 milyard dollar (2015-2025-ci illərdə bu xərclər 2-3 dəfə arta bilər) təşkil etsə də, problemin həllinə nail olmaq mümkün olmayıb. ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin 2020-ci ilə qədər hazırladığı proqnozlara görə, yaxın onilliklərdə inkişaf etmiş ölkələrin bir-birilə yanacaq resursları üstündə deyil, məhz içməli su üstündə savaşacaqları ehtimalı daha böyükdür.

"Su həyat üçün" devizi ilə elan edilmiş 2005-2015-ci illəri əhatə edən beynəlxalq onillik gələn il başa çatır. Buna baxmayaraq planetin bütün sakinləri suyun çox mühüm bir əhəmiyyətə malik olduğunu anlayır və suyu əvəz edəcək ikinci bir maddəni yaratmağın mümkün olmadığını dərk edir.